# Ümumxalq sevgisinin, parlaq gələcəyə inamın ifadəsi

*Ötən il bir sıra mühüm hadisələrlə yadda qaldı. Bunlardan biri də fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri idi. Prezident seçkiləri bir dövrün yekunu, yeni bir dövrün başlanğıcı sayılır. Bir il öncə keçirilən prezident seçkiləri digərlərindən fərqli idi. Çünki ilk dəfə idi ki, tarixi torpaqlarını geri qaytaran, suverenliyini tam bərpa edən bütöv Azərbaycanda prezident seçkiləri keçirildi, növbəti 7 il üçün vətəndaşların 92,12 faizi cənab İlham Əliyevə səs verərək dövlət rəhbərini seçdilər.*

Prezident seçkilərinin əhəmiyyəti və strateji hədəfləri xüsusi məna daşıyırdı. Bu həm də Azərbaycanın uğurlarının, qazandığı zəfərlərin tarixi təsbiti və təsdiqi idi. Ölkəmizi bütövləşdirən, xalqın mütləq qəhrəmanına çevrilən cənab İlham Əliyev böyük səs çoxluğu ilə qalib gəldi. Beynəlxalq və yerli müşahidəçilərin, eyni zamanda digər namizədlərin rəylərində əks olunduğu kimi tam ədalətli, şəffaf şəkildə keçirilən seçkilər dünya demokratiyası üçün də bir nümunə oldu. Xalq-hakimiyyət birliyinin möhkəmliyi, vətəndaşlarımızın Prezident İlham Əliyevin siyasətinə böyük inam və etimadı nümayiş olundu.

Xalqımızın adını tarixə qızıl hərflərlə yazdıran qalib Ali Baş Komandana səs verməsi ölkəmizin növbəti zəfəri idi. Prezident İlham Əliyevin rəhbərliyi dövrünə qısaca nəzər yetirdikdə aydın görünür ki, bu dönəm Azərbaycan tarixinin inkişaf, rifah, zəfər dövrüdür və ölkəmizin çoxəsrlik dövlətçilik tarixinə möhtəşəm 20 il kimi daxil olub. Bu illər ərzində ölkə rəhbəri ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsini müstəqil Azərbaycanın dövlət başçısı olaraq layiqli şəkildə uğurla davam etdirib. Prezident İlham Əliyev mövcud şəraitə adekvat yanaşması, düzgün və məqsədyönlü qərarları, eyni zamanda müasir dünyanın çağırışlarına uyğun addımları ilə xalqın inamını, etimadını doğrultdu, dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyi qorudu, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətini daha da inkişaf etdirərək hər bir azərbaycanlının Prezidenti oldu. Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatı inkişaf etdi, əhalinin sosial rifahı, həyat şəraiti yüksəldi. Uğurlu diplomatik münasibətlər sayəsində dünya ölkələri, region dövlətləri ilə qarşılıqlı etimada əsaslanan sağlam əlaqələrin qurulması və inkişaf etdirilməsi ölkəmizin böyük nailiyyətidir. Bu gün dövlətimiz beynəlxalq səviyyədə diktə edən tərəf kimi şərtləri müəyyən edir, dünyanın güc dövlətləri Azərbaycanla hesablaşır. Qazanılan uğurların əsasında Prezident İlham Əliyevin liderliyi, qətiyyəti və siyasi bacarıqları dayanır.

Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Prezident İlham Əliyevin dövlət başçısı kimi 20 illik fəaliyyətinin ən böyük zirvəsi 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfərdir. Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi sözə tam əməl etdi. Ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, üçrəngli bayrağımızı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər işğaldan azad edilən bölgələrdə şərəflə dalğalandırdı. Məhz 7 fevral 2024-cü ildə keçirilən növbədənkənar prezident seçkiləri Prezident İlham Əliyevin xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisidir. Ölkə başçımız bu günə qədər dediyi hər məsələni uğurla həyata keçirib. "Qarabağ Azərbaycandır!" şüarını dilindən düşürməyən xalqımız uzun illərin bir zəhmət hesabına bu şüarı yaradan və həyata keçirən ölkə rəhbərinin hər zaman olduğu kimi, bu seçkilərdə də yanında oldu, xarici və daxili siyasətini dəstəklədi.

Cənab Prezident İlham Əliyevin bütün qərarları Azərbaycan xalqının milli maraqlarına və mənafeyinə xidmət edir. Nəticə etibarilə bu qərar və sərəncamlar dövlətimizin beynəlxalq miqyasda gücünün və nüfuzunun daha da artmasına gətirib çıxarıb. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. 2024-cü il 7 fevral prezident seçkilərinin nəticəsi xalqımızın qalib liderinə olan sevgisinin təzahürü ilə bərabər, həm də gələcəyə inam idi. Xalqımızın milli problemlərini həll edərək Azərbaycanı daha böyük hədəflərə doğru aparan ümumxalq rəhbərinə sevgisi əbədidir. Cənab İlham Əliyevin bir daha Azərbaycanın lideri seçilməsi ölkəmizin yeni inkişaf mərhələsinin əsasını qoydu. Beləliklə, qarşıya qoyulan bütün hədəflərə nail olan qalib Azərbaycan bundan sonra daha da qüdrətlənərək yeni zəfərlərə doğru inamla addımlayacaq, Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük nailiyyətlərə imza atacaq.

**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika .- 2025.- 7 fevral (№ 27).- S.4.